

# Tofiq Saleh

## Güllə kimi açılacaq, qoca Təbriz ayaqdadır

Güllə kimi açılacaq, qoca Təbriz ayaqdadır,
Qanunlara etiraz var,Azadlığa maraqdadır,

təkin olunanda "Qarabağda erməni daş- xanda gördüm ki, Sabir Şəhidlər Xiya- mənəbən qutlu olsun, qardaşım!

İnqilablar başlayıbdır, Xalqın əli yaraqdadır,
Bir əli də Səttarxanın qaldırdığı bayraqdadır.
Dünya görmüş ulu Təbriz, ana Vətən, ayağa qalx,
Alov qalxır ürəyindən, od püskürür ana torpaq,
Zaman sənə oyan deyir, oyan deyir, önünə bax,
Sən qalxmasan, oyanmasan, de, yerinə kim qalxacaq,
İzdihamla, al bayraqla meydanlara ax, ey Təbriz!
İldırım tək, bir nərə çək, şimşək kimi çax, ey Təbriz.
Görmürsənmi başlar kəsir, qanlar tökür, tökür İran,
Laxlayıbdır hakimiyyəti, taxt-tacınnan çökür İran.
Ey İran, sən faşizmisən!
Dünya, həyat dəyişib, fəqət sənsə dəyişmirsən,
Faşizminin varlığısan, nifrət sənə, lənət sənə,
Çatacaqdır mən yazdığım şeir sənə, sənət sənə,
Unudubsan bəlkə mənim qüvvətimi, qüdrətimi,
Min il bundan əvvəl yazıb, ulu babam şöhrətimi.
Bilirsən ki, əslim, nəslim Koroğludur, Babək olub,
Qılıncında, qalxanında, yay-oxunda o, tək olub,
İlk dəfə bax, o, qaldırıb Azadlığın bayrağını,
O söndürüb zalımların, zülm evinin çırağını.
Carçısıydı Azadlığın, İstiqlalın, Səadətin,
Düşməniydi istibdadın, evladıydı Ədalətin!
Bir varaqla tarixləri, anla məni, gör kiməm kim?!
Mənim nəslim övladıdır Koroğlunun, mərd Babəkin.
Oğlum, qızım ildırımdır, gurlayacaq başın üstə,
Qoymayacaq ölkənizdə bir daş qalsın, daşın üstə!
Cəllad! Sənin zülmün durur, bax, xalqımın ürəyində,
Zülüm daşı, möhnət daşı daşıdırsan kürəyində.
Qoymadın ki,
Azad, xoşbəxt yaşıyalar, dərd əlindən sovuşalar,
İstibdaddan xilas olub, Azadlığa qovuşalar.
Hakimiyyətə gələn gündən, cildə girən iblis oldun,
Xalqımızın istiqlalna, azadlığna bais oldun!
Sən də ulu baban Kir tək, azğınlaşdın, quduzlaşdın,
Qanunların qara yazır, istibdada sən yol açdın.
"Zorakılıq", "qamçı", "zopa", "zəncir", "buxov", "o dar zindan",
Min əzablar, işgəncələr, kəsilən baş, tökülən qan.
Hələ bunlar azmış kimi,
Utanmırsan, meydanlarda dar ağacı qurdurursan,
Hər hökmünlə qılınc kimi neçə başı vurdurursan!
Qonşuluqda payın yoxdur, xainlikdə tayın yoxdur!
Hər bir hökmün qılınc, qalxan, xalqa dəyən nizə, oxdur.
Yer üzünün şər allahı, Zevs kimi bir insansan,
İnsanlığın şərəfini, böyüklüynü axı nə vaxt qanacaqsan?!
Bu gün-sabah inqilablar ocağında yanacaqsan!
Yaşamağa haqqın yoxdur, insanlığa bir ləkəsən,
Sən faşistsən!
Dar ağacı qurdurursan fədailər nəslinə sən!
Mən demirəm, anla İran, tarix deyir, deyir zaman,
Yaxın vaxtda qırılacaq, sənin o quzğun qanadın,
Qalmayacaq yer üstündə nə ünvanın, nə də adın.
Xomeyinlər dünyasının sonu çatıb,
Laxlayıbdır hakimiyyəti, devriləcək taxtı-tacı,
Öz başını yeyəcəkdir, sən qurduğun dar ağacın.
Qalmayacaq,
Nə zindanın, dar ağacın, nə qalxanın, nə qılıncın,
Sən faşitsən! Daş daşıtdın gecə-gündüz millətimə,
De, kim dözər baş kəsənin, qan tökənin zillətinə?!
Siz cəlladsız! Qatı cəllad, qatır cinsi qatırsınız,
Məsum olan insanları odda, közdə çatırsınız,
Diri gözlü insanları tonqallara atırsınız,
Ən dəhşətli əzazili, Keyxosrovu andırırsız.
Bu nəhəng dünya xalqları atıb, töküb çadrasını,
Fəqət sənsə çadra hökmü tətbiq etdin, utanmadın,
Yüz illərdi xalqım geyir kapitalizmin libasını.
Tarix-tarix qandal vurub qollarımı bağladınız,
Azadlığın, istiqlalın yollarını bağladınız...
Oğullarmı, qızlarımı zindanlarda saxladınız,
Sinəmizə çalın-çarpaz dağlar çəkib, dağladınız!
Oxumağa, nə yazmağa qoymadınız öz dilimdə,
Qandal durdu zaman-zaman biləyimdə, bax, əlimdə.
Dar ağacı irticanın, vəhşiliyin son həddidir,
Bütün bunlar tarixlərdə görünməmiş orbitdədir.
Mollalığa, istibdada qadağalar baş qaldırıb,
Meydanlarda al bayraqlı izdiham var, üsyan gedir!
Qırğın da var, ölüm də var, azadlığın yollarıda,
Neçə-neçə bu dünyadan gözü bağlı, qəlbi dağlı insan gedir.
Qoca Təbriz tarix yazır, imza atır Azadlığa!
Pələng kimi nərildəyir, hazır durub, ayaqdadır,
Güllə kimi açılacaq, azadlığa maraqdadır.
Onun gözü Səttarxanın qaldırdığı bayraqdadır,
İnqilablar başlayıbdır, xalqın əli yaraqdadır!
Alov qalxır ürəyindən, od püskürür ana torpaq,
İstibdaddan, müstəbitdən bir nişanə qalmayacaq!
Azadlığın, istiqlalın, səadətin eşqinə, bax,
İzdihamla, al bayraqla dəniz kimi qaynayır xalq!
O izdiham Babək nəsli, Səttarxanın övladıdır,
Azadlığa imza atan, tarix yazan Təbrizimin öz adıdır!
..." Bir varaqla tarixləri, utan mənim qarşımda,
Anam Tomris kəsmədimi Keyxosrovun başını?
Koroğlunun, Səttarxanın çələngi var başımda,
Nəsillərim qoymayacaq, daş üstündə daşını,
Anam Tomris kəsmədimi Keyxosrovun başını?" (S.Vurğun)
...Mən gördüyüm al bayraqlı o izdiham bugün-sabah
Hakimiyyəti devirəcək, taxt-tacını yandıracaq,
Babaları mərd Babəkin bayrağını qaldıracaq!
Azadlığın fırtınası, istiqlalın qasırğası
İnqilabla, top-tüfənglə, üsyanlarla başlayacaq.
Hakimiyyəti daşa tutub, dəmir, daşla daşlayacaq,
Qalmayacaq yer üstündə molla rejmi, İran farsı.
Tehran rejmi fars rejmidir, insan ucuz, ölüm ucuz,
Allah sizə qənim olsun, yaranışdan terrorçusuz.
Bax, dünən də basqın etdiz Tehrandakı səfirliymə,
Sən qatilsən, xilqətinlə yaranıbsan iblisliyə.
Şah İsmayıl;
Xətailər baş qaldırıb, dağılacaq hakimiyyətin,
Farsı İran,
Varmı sənin de Vətənin, varmı sənin məmləkətin?
Fitnələrdən, iftiradan gecə-gündüz xəyal etdin,
Aldın mənim silahımı, əllərimdən yarağımı!
Sən də faşist erməni tək cildə girib, işğal etdin
Xətailər Vətənini, mənim ana torpağımı!
Sən gəlməsən, yad ünsürsən, qatır cinsi, qurd oğlusan,
Haqqın yoxdur yaşamağa, mənim ana torpağımda!
Şah İsmayıl Xətainin, Səttarxanın Vətənidir
Sən tutduğun o torpaqlar, sən tutduğun el-obalar!
Yer üzündə qalmayacaq bir nişanən, yerlə-yeksan olacaqsan,
Açıldıqca raket, mərmi, töküldükcə başın üstə od bombalar!
Azadlığın yarağıdır, əlimdəki yarağım da!
Bombalarla dağılacaq tacı-taxtın, hakimiyyətin!
Keçmir daha qanunların, ölüb sənin siyasətin!
Yer üzündə qalmayacaq "zəncir", "buxov", "zindan", "qala"!
Öz əlinlə gəl təhvil ver, hakimiyyəti istiqlala!
...Canı, qanı, dili, dini birgə olan bir millətin
Bir dövləti, bir bayrağı olmalıdır, deyir zaman!
O dövlətin, o millətin, o Vətənin şanlı adı,